# HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№ 06 (2013) 13 fevral 2026-cı il, Həftəlik ictimai-siyasi qəzet Qiymət: 50 qəpik


# Şəhidlik zirvəsi hünər və qeyrət simvoludur

## ŞƏHİD GİZİR BAĞIR ƏLƏKBƏROV AD GÜNÜNDƏ DƏRİN EHTİRAMLA YAD EDİLİB

**Vətənpərvərliyin ən ali məqamı şəhidlikdir. Şəhidlik zirvəsi isə hünər və qeyrət simvoludur. Ömrünün ən gözəl çağını doğma vətəninə calayan, doğma torpaqlarımızın azadlığı uğrunda şəhadətə ucalan hər bir qəhrəman bizə doğmadır. Müqəddəs vətəndə uyuyan hər bir şəhidimizin öz ünvanı, öz taleyi, öz həyat hekayəsi var. Bu ucalığa yüksələnlərin ömür yolu qısa olsa da, şərəfli və örnək sayılır. Belə vətənpərvər, cəsur, igid oğullarızdan biri də şəhid gizir Ələkbərov Bağır Əsəd oğludur.**




Fevralın 10-da Vətən uğrunda canından keçmiş şəhid gizir Ələkbərov Bağır Əsəd oğlunun anadan olmasının ildönümü münasibətilə Əliabad qəsəbəsində anım tədbiri keçirilib.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Əlahiddə Ümumqoşun Ordunun zabit heyəti, şəhid ailələri, müharibə veteranları, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Anım mərasimi Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ardınca ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş bütün şəhidlərin, eləcə də şəhid gizir Bağır Ələkbərovun əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə şəhid valideynlərindən Əbülfət Əliyev, şəhid anası Gülşad Sadiqova, Naxçıvan Şəhər İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri İsmayıl Gülməmmədov, qazilər, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları və Əlahiddə Ümumqoşun Ordunun zabitləri çıxış ediblər.




Çıxışlarda Ali Baş Komandan, cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbədən, ordumuzun döyüş qabiliyyətindən və sarsılmaz gücündən, şəhid gizir Bağır Ələkbərovun şərəfli döyüş yolundan, göstərdiyi igidlik və fədakarlıq nümunələrindən ətraflı bəhs olunub. Bildirilib ki, bu Qələbə Azərbaycan hərb tarixində xüsusi yer tutur və şəhidlərimizin qəhrəmanlığı xalqımızın milli yaddaşında daim yaşayacaq, gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasında mühüm rol oynayacaqdır.

Qeyd olunub ki, Vətən uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın xatirəsi dövlətimiz və xalqımız tərəfindən hər zaman uca tutulur, onların ailələrinə göstərilən diqqət və qayğı ölkəmizdə aparılan sosial siyasətin əsas istiqamətlərindən biridir.




Tədbirin bədii hissəsində 16 nömrəli tam orta məktəbin şagirdləri tərəfindən şəhid gizir Bağır Ələkbərovun əziz xatirəsinə həsr olunmuş şeirlər səsləndirilib, vətənpərvərlik mövzusunda kompozisiyalar təqdim edilib.

Şəhidin atası Əsəd Ələkbərov çıxış edərək ölkəmizdə şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, eləcə də şəhid ailələri ilə işləyən aidiyyəti dövlət qurumlarına dərin minnətdarlığını ifadə edib.

Anım tədbiri şəhidin məzarının ziyarət edilməsi, üzərinə tər gül dəstələrinin düzülməsi və ruhuna duaların oxunması ilə davam etdirilib.

Daha sonra Əliabad qəsəbəsində şəhidin adını daşıyan mərasim evində şəhidimizin əziz xatirəsinə ehsan süfrəsi açılıb.

Qeyd edək ki, gizir Bağır Ələkbərov 2018-ci ilin may ayında Naxçıvan ərazisində həyata keçirilmiş və tarixə "Günnüt əməliyyatı" kimi düşmüş hərbi əməliyyatlarda iştirak edib. O, strateji əhəmiyyətə malik Günnüt kəndinin, "Ağbulaq" yüksəkliyinin, Qızılqaya və Qaraqaya dağlarının azad olunması uğrunda aparılan döyüşlərdə xüsusi igidlik göstərərək Xüsusi Təyinatlı Qüvvələrin tərkibində qarşıya qoyulan döyüş tapşırıqlarını layiqincə yerinə yetirib.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı isə xüsusi təyinatlı qrupun heyətində Füzuli və Hadrut istiqamətlərində gedən ağır döyüşlərdə iştirak edib, 15 yaşayış məntəqəsinin azad edilməsində qəhrəmanlıqla vuruşub. Şəhid gizir Bağır Ələkbərov 2020-ci il oktyabrın 15-də Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

Göstərdiyi igidlik və Vətən qarşısında xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə gizir Bağır Ələkbərov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

**Ruhu şad, məkanı cənnət olsun!**


*Bəxtiyar ƏLİYEV*
*"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi*